**AR Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri cənab Anar Bağırova**

Bakı şəhəri, Xəzər rayonu, Binə qəsəbəsi, Rəhman Əşrafov küçəsi ev 8 döngə 2 ünvanında yaşayan, **Aslanova Sevil Əsəd qızı** tərəfindən

Telefon: 055 793-39-35

# TƏŞƏKKÜR

**Hörmətli Anar Bağırov!**

İlk növbədə, Azərbaycan vəkilliyinin dünyada və regionda artan nüfuzu, vəkillərin tanınması, cəmiyyətdə vəkillərə və vəkilliyə olan münasibətin dəyişməsi, inamının artması və.s bu kimi görülən uğurlu və məqsədyönlü fəaliyyətinizlə bağlı sadə Azərbaycan vətəndaşı kimi Sizə minnətdarlığımı bildirməklə yanaşı gələcək fəaliyyətinizdə sizə can sağlı və yeni-yeni peşə naliyyətləri arzu edirəm.

Əminliklə bildirirəm ki, Azərbaycan vəkilliyinin inkişafını son zamanlar hüquqi yardım üçün müraciət edən hər bir şəxs daha dərindən hiss etmişdir. Çünki vətəndaşlarımız əvvəlki vəkillkdən tam fərqli hüquqi yardım və vəkil münasibəti ilə qarşılaşırlar.

Şəxsən mən də, Bakı şəhəri 13 saylı vəkillər burosunun savadlı, təcrübəli və çox cəsarətli vəkili Şahməmmədov İlqar Şahməddin oğlunun peşəkar vəkil kimi göstərdiyi keyfiyyətli hüquqi yardımı və insanı münasibətinin şahidi olduğum üçün qürurla bu məktubu Sizə ünvanlamaq qərarına gəldim. Bildirmək istəyirəm ki, İlqar Şahməmmədov mənim oğlum Aslanov Qədir Nüsrətdin oğlunun həm istintaqda, Bakı şəhəri Baş Polis İdarəsində təyinat üzrə, həm də Bakı Ağır Cinayətlər Məhkəməsində, müqavilə üzrə müdafiəçisi olub.

Əminliklə bildirirəm ki, İlqar Şahməmmədov nəinki mənim, hüquqi yardım üçün ona müraciət edən istənilən şəxsə belə münasibət göstərir. Çünki onun peşəkarlılığı, savadı və intizamı ilə yanaşı yüksək ailə tərbiyəsi də var. Mən bu halın şahidi oldum və əminəm ki, kollegiyanın rəhbərliyi də bunu bilir. Vəkillər arasında onun kimi hüquq müdafiəçilərimizin sayının çox olması qürurverici hissdir və o mükafatlandırılmağa layiqli insandır.

Onu da qeyd edirəm ki, onun işlə bağlı peşəkar və uzaq görən addımları kifayət qədər təcrübəli vətəndaş kimi şəxsən məni təəcübləndirdi.

**Hörmətli Anar müəllim!** Bir daha müasir Azərbaycan Vəkilliyinin banisi kimi Sizə və mənə, oğluma göstərdiyi keyfiyyətli hüquqi yardıma və insanı münasibətə görə Vəkillər Kollegiyasının üzvü, Bakı şəhəri 13 saylı vəkil bürosunun vəkili İlqar Şahməmmədova öz adımdan və ailəm adından təşəkkür edirəm.

**Hörmətlə,**

**Vətəndaş** **Aslanova Sevil Əsəd qızı**
**24.11.2025-ci il.**

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 55
«07» 01 2026